# RUT KİTABI

## GİRİŞ

*«Rut»* Kitabı Moavlı bir qadının ürək kövrəldən həyat hekayəsidir. Moavlı Rut İsrailli bir kişiyə ərə gedir. Əri öləndən sonra o, qayınanasına sonsuz sədaqət göstərərək İsraillilərin etiqad etdikləri Allaha bütün ürəyi ilə ümid bağlayır. Allah da Rutun sadiq ürəyini görüb ona yeni bir ümid qapısı açır. Sınıq qəlbli, qərib və tənha dul qadın olan Rut Allahın sonsuz mərhəməti nəticəsində İsrail xalqı arasında sakin olur. O, böyük peyğəmbər və padşah Davudun ulu nənəsidir.

*«Rut»* Kitabında aydın göstərilir ki, millətindən asılı olmayaraq hər kəs tək Allaha üz tutsa, Allahdan bərəkət alar və Onun sadiq xalqının nümayəndəsi olar.

**Kitabın məzmunu:**

1:1-22 Naominin Rutla Bet-Lexemə qayıtması
2:1–3:18 Rut Boaza rast gəlir
4:1-22 Boazın Rutla evlənməsi

### *Elimelekin ailəsi ilə Moav torpağına köçməsi*

1 Hakimlərin hökm etdiyi günlərdə ölkədə qıtlıq oldu. Elə bu vaxtlarda Yəhudanın Bet-Lexem şəhərindən bir kişi arvadı və iki oğlu ilə birgə müvəqqəti yaşamaq üçün Moav torpağına köçdü.
2 Bu kişinin adı Elimelek, arvadının adı Naomi, bir oğlunun adı Maxlon, o birinin adı isə Kilyon idi. Onlar Yəhudanın Bet-Lexem şəhərindən olan

Efratlılar idi. Bu adamlar gəlib Moav torpağında yaşadılar.

3 Bir gün Naominin əri Elimelek öldü və o, iki oğlu
ilə qaldı. 4 Oğulları özlərinə Moav qadınlarından ar-
vad aldı. Bu qadınların birinin adı Orpa, o birinin
adı isə Rut idi. Onlar on ilə yaxın bu torpaqda
yaşadı. 5 Sonra Maxlon və Kilyon da öldü, Naomi
həm oğulsuz, həm də ərsiz qaldı.

### *Bet-Lexemə qayıtma*

6 Bir gün Naomi gəlinləri ilə Moav torpağından
geri qayıtmaq üçün ayağa qalxdı. O, Moav tor-
pağında eşitmişdi ki, Rəbb Öz xalqına nəzər salaraq
onlara çörək vermişdir. 7 Naomi Yəhuda tor-
pağına qayıtmaq üçün gəlinləri ilə yaşadığı yerdən
çıxıb yola düşdü. 8 Naomi hər iki gəlininə dedi:
«Gəlin siz hər biriniz ananızın evinə qayıdın. Sizin
mərhumlara və mənə etdiyiniz xeyirxahlığa görə
qoy Rəbb sizə xeyirxahlıq etsin. 9 Rəbb elə etsin
ki, hər biriniz ər evində rahatlıq tapasınız». Sonra
o, gəlinlərini öpdü və onlar hönkürüb ağladılar.
10 Gəlinləri ona dedilər: «Xeyr, biz də səninlə birgə
xalqının yanına gedirik». 11 Naomi isə dedi: «Ay
qızlarım, qayıdın geri. Axı niyə siz də mənimlə
getməlisiniz? Məgər bətnimdə yenə oğullarım var
ki, sizə ər olsun? 12 Qayıdın, ay qızlarım, öz yol-
unuzla gedin. Mən indi ərə getmək üçün çox
yaşlıyam. Desəm ki, ümidim var, hətta bu gecə ərə
gedib oğullar doğacağam, 13 onlar böyüyənə qədər
gözləyərsinizmi? Ərə getməyib səbir edərsinizmi?
Yox, qızlarım! Sizin halınıza çox acıyıram, çünki
mənə qarşı qalxan Rəbbin əlidir». 14 Onlar yenə

də bərkdən ağlaşdılar. Orpa qayınanasını öpüb vidalaşdı, Rut isə ona sarıldı.

15 Naomi Ruta dedi: «Bax qaynın arvadı öz
xalqının və allahlarının yanına qayıtdı, gəl sən də
onun ardınca geri qayıt». 16 Rut dedi:
«Məcbur etmə ki, səni tərk edib
Səninlə getməyim.
Bil ki, hara getsən, ora gedəcəyəm,
Harada qalsan, orada qalacağam;
Xalqın xalqım olacaq,
Allahın Allahım.
17 Sən harada öləcəksənsə,
Mən də orada öləcəyəm,
Orada da basdırılacağam.
Əgər ölümdən başqa bir şey
Məni səndən ayırarsa,
Qoy Rəbb mənə beləsini və
Bundan betərini etsin».
18 Naomi Rutun onunla getmək üçün qəti qərara
gəldiyini görəndə bir daha onu dilə tutmadı.

19 Hər ikisi Bet-Lexemə qədər gedib oraya
çatdılar. Bet-Lexemə daxil olanda onları görən
bütün şəhər əhalisi hərəkətə gəldi və dedilər: «Bu,
Naomi deyilmi?» 20 Naomi onlara dedi: «Mənə
Naomi * deməyin, mənə Mara† deyin, çünki Külli-
İxtiyar həyatımı acı etdi. 21 Mən buradan dolu
çıxdım, Rəbb məni boş qaytardı. Bir halda ki Rəbb
məni ittiham etdi, Külli-İxtiyar başıma müsibət
gətirdi, daha niyə məni Naomi çağırırsınız?»

---

* **1:20** Naomi – ibrani dilində xoş. † **1:20** Mara – ibrani dilində acı.

22 Beləliklə, Naomi Moav torpağından onunla
birgə gələn gəlini Moavlı Rutla bərabər geri qayıtdı.
Onlar Bet-Lexemə arpa biçini başlananda gəldilər.

# 2

*Rut Boazın zəmisində*

1 Naominin əri Elimelekin nəslindən Boaz adlı
mərd və xeyirxah bir qohumu var idi.

2 * Bir gün Moavlı Rut Naomiyə dedi: «İzin
ver, zəmilərə gedim. Kimin gözündə lütf tap-
sam, onun ardınca düşüb başaq yığaram». Naomi
ona «get, qızım» dedi. 3 Rut getdi və bir zəmiyə
girib biçinçilərin ardınca başaq yığmağa başladı.
Təsadüfən o, Elimelekin nəslindən olan Boazın
sahəsinə girmişdi.

4 Bu vaxt Boaz Bet-Lexemdən gəldi və biçinçilərə
dedi: «Qoy Rəbb sizinlə olsun!» Biçinçilər cavab
verdilər: «Rəbb sənə xeyir-dua versin». 5 Boaz
biçinçilərə nəzarət edən nökərinə dedi: «Bəs bu
cavan qadın kimdir?» 6 Nökər cavab verdi: «Bu
cavan qadın Moavlıdır. O, Moav torpağından
buraya Naomi ilə birlikdə gəlib. 7 Mənə dedi:
"Rica edirəm, qoy biçinçilərin ardınca düşüm və
dərzlərin arasından düşən başaqları yığıb toplayım".
Səhərdən gəlib, indiyəcən buradadır, talvar altında
isə lap az dincəlib».

8 Boaz Ruta dedi: «Mənə qulaq as, qızım! Başaq
yığmaq üçün buradan ayrılıb başqa zəmiyə getmə.
Burada işləyən mənim qulluqçu qızlarımla qal.
9 Yalnız biçinçilərin biçdiyi bu zəmiyə gözünü dik
və qızların ardınca get. Nökərlərə əmr etmişəm

* **2:2** Lev. 19:9-10; Qanun. 24:19

ki, heç kimin səninlə işi olmasın. Əgər susasan,
su qablarının yanına gedib nökərlərin çəkdiyi su-
dan iç». 10 Rut üzüstə yerə döşəndi və yerədək
təzim edərək dedi: «Nəyə görə mən gözlərində lütf
tapdım? Nə üçün mənə hörmət edirsən? Axı
mən bir qəribəm». 11 Boaz ona cavab verdi:
«Ərin öləndən sonra qayınanana etdiyin hər şeyi
eşitmişəm. Sən atanı, ananı, doğma torpağını atıb
heç tanımadığın bir xalqın yanına gəlmisən». 12 Bu
işinin əvəzini qoy Rəbb versin! Qoy qanadı altına
sığınmaq üçün gəldiyin İsrailin Allahı Rəbb sənə bol
mükafat versin! 13 Rut dedi: «Qoy sənin gözündə
lütf tapım, ağam, necə də mənə təsəlli verdin.
Sənin kənizlərinin birinə tay olmadığım halda bu
kənizini ürəkləndirən sözlər söylədin».

14 Yemək zamanı Boaz Ruta dedi: «Buraya gəl,
sən də çörəkdən ye, tikəni sirkə-şirəyə batır».
Qadın gəlib biçinçilərin yanında əyləşdi. Boaz
ona qovurğa uzatdı. Qadın yeyib-doydu və
yeməyindən artıq da qaldı. 15 Rut başaq yığmaq
üçün ayağa qalxanda Boaz nökərlərinə əmr edib
dedi: «Qoy o gedib dərzlərin arasından başaq yığsın,
onu incitməyin. 16 Dərzlər arasından çəkib onun
üçün də atın ki, o da yığsın. Onu qınamayın».

17 Rut axşama qədər zəmidə başaq yığdı və yığdığı
başağı döyüb bir efaya yaxın arpa çıxartdı. 18 Sonra
onu götürüb şəhərə gəldi. Qayınanası gördü ki, o,
başaq gətirib. Rut naharda doyandan sonra artıq
qalan yeməyini qayınanasına verdi. 19 Qayınanası
ona dedi: «Bu gün harada başaq yığmısan? Harada
işləmisən? Sənə hörmət edən qoy xeyir-dua alsın!»
Rut yanında işlədiyi adam haqqında qayınanasına

danışıb dedi: «Bu gün yanında işlədiyim adamın adı
Boazdır». 20 * Naomi gəlininə dedi: «Dirilərdən və
ölülərdən Öz xeyirxahlığını əsirgəməyən Rəbb qoy
ona xeyir-dua versin!» Naomi yenə dedi: «O, qo-
humumuzdur, yaxın qəyyumlarımızdan biridir».
21 Moavlı Rut dedi: «Bir də o mənə dedi ki,
mənim biçinim qurtarana qədər işçilərimlə birgə
işlə». 22 Naomi gəlininə dedi: «Qızım, onun qul-
luqçu qızları ilə işləməyin çox yaxşıdır, yoxsa başqa
zəmilərdə səni incidərlər».
23 Beləliklə, Rut arpa və buğda biçinləri qur-
tarana qədər Boazın qulluqçu qızlarının yanında
başaq yığdı və qayınanası ilə birgə yaşadı.

# 3

*Rut Boazın xırmanında*
1 Bir gün qayınanası Naomi Ruta dedi: «Qızım,
sənin ailə xoşbəxtliyin üçün rahat bir yer axtar-
mayımmı? 2 Bax qulluqçu qızları ilə sahəsində
işlədiyin Boaz bizim qohumumuzdur. O bu
gecə xırmanda arpa sovurur. 3 Sən də yuyun,
ətirlən və ən gözəl paltarını geyinib xırmana en.
Amma o yeyib-içməyini qurtarmayınca özünü ona
göstərmə. 4 Elə ki yatmağa getdi, yerini tapıb onun
ayaqlarının üstünü açaraq ayaq tərəfində yatarsan.
Sonra nə etmək lazımdırsa, o özü sənə deyəcək».*
5 Rut ona «dediklərinin hamısına əməl edərəm»
dedi.
6 Rut xırmana endi və qayınanasının bütün
tapşırıqlarına əməl etdi. 7 Boaz yeyib-içib kefi
kökələndən sonra yatmaq üçün məhsul tayasının

* **2:20** Lev. 25:25 * **3:4** Bu, qədim Yəhudilərdə ərə getməyə bir işarədir.

kənarına getdi. Rut da sakitcə gəldi və ayaqlarının
üstünü açıb ayaq tərəfində uzandı. 8 Gecə yarısı
birdən Boaz səksəndi və çevrilib baxanda gördü
ki, ayaqlarının yanında bir qadın uzanıb. 9 O,
qadına dedi: «Sən kimsən?» Qadın cavab verdi:
«Mən qarabaşın Rutam. Ətəyinlə bu qarabaşının
da üstünü ört, çünki sən qəyyumumsan». 10 Boaz
dedi: «Qoy Rəbb sənə xeyir-dua versin, qızım!
Sonuncu xeyirxahlığın əvvəlkindən də yaxşıdır.
Çünki nə kasıb, nə də varlı bir cavanın ardınca
düşdün. 11 Qızım, daha qorxma! Dediyin hər şeyi
sənin üçün edəcəyəm. Şəhərimizin bütün əhalisi
yaxşı bilir ki, sən xeyirxah qadınsan. 12 * Düzdür,
sənin qəyyumun mənəm, amma məndən də yaxın
qəyyumun var. 13 Bu gecəni qal, sabah əgər o
adam sənə qəyyum olmaq istəsə, çox yaxşı, qoy
olsun. Yox, əgər bundan imtina etsə, var olan
Rəbb haqqı, sənin qəyyumun mən özüm olacağam.
Hələlik sabaha qədər yat».

14 Rut onun ayaqlarının yanında sübhədək yatdı
və səhərin alaqaranlığında – hələ gözün yaxşı
seçmədiyi vaxtda ayağa qalxdı, çünki Boaz demişdi:
«Qoy heç kəs bilməsin ki, xırmana bu qadın gəlib».
15 Sonra Boaz Ruta dedi: «Üst örtüyünü götür, bu-
rada tut». Rut örtüyünü götürüb kənarından tutdu.
Boaz altı ölçü arpanı örtüyün üstünə töküb ona
verdi. Rut şəhərə qayıtdı.

16 O, qayınanasının yanına gələndə qayınanası ona
dedi: «Necə oldu, qızım?» Rut Boazla olan hər
şeyi Naomiyə danışdı, 17 sonra dedi: «O mənə altı
ölçü arpa verib dedi ki, qayınananın yanına əliboş

* **3:12** Rut 2:20

qayıtma». 18 Naomi Ruta dedi: «Qızım, gözlə, gör bu
işin sonu necə qurtarır, çünki o adam bu işi bu gün
axıra çatdırmayınca sakit olmayacaq».

# 4

## *Boazın Rutla evlənməsi*

1 Boaz şəhərin darvazasına çıxıb adamlar
toplanan yerdə oturdu. Boazın bəhs etdiyi
qəyyum oradan keçirdi. Onu görən Boaz «ay
filankəs, bir dön, burada otur» dedi. O da gəlib
orada oturdu. 2 Şəhər ağsaqqallarından on adamı
çağırıb «siz də burada oturun» dedi. Onlar da gəlib
orada oturdular. 3 Boaz həmin qəyyuma dedi:
«Moav torpağından qayıdan Naomi, qardaşımız
Elimelekin zəmisini satır. 4 Mən də burada
oturanların və xalqımın ağsaqqalları qarşısında sənə
eşitdirmək istədim ki, oranı satın alasan. Əgər sən
bu qəyyumluq vəzifəsini yerinə yetirəcəksənsə,
bunu et, əgər bundan imtina edirsənsə, bunu açıq
de, mən də bilim. Çünki səndən başqa bu vəzifəni
öhdəsinə götürən kimsə yoxdur, yalnız səndən
sonra mən varam». O, Boaza dedi: «Qəyyumluq
vəzifəsini mən yerinə yetirərəm». 5 Boaz dedi:
«Zəmini Naomidən satın alarkən onun mərhum
oğlunun arvadı Moavlı Rutu da arvad olaraq
almalısan ki, mərhumun adı öz irsi üzərində
qalsın». 6 Qəyyum olan adam dedi: «Mən ona
qəyyumluq edə bilmərəm, yoxsa öz irsim dağılar.
Mənim vəzifəmi sən öz öhdənə götür, mən qəyyum
ola bilmərəm».

7 * Qədim zamanlarda İsraildə belə bir adət var
idi: qəyyumluq vəzifəsini icra edərkən və mal

---

* **4:7** Qanun. 25:9

dəyişərkən müqavilə bağlanmasına şəhadət olsun
deyə biri öz çarığını çıxarıb başqasına verərdi.
Bu, İsraildə qəbul olunan razılaşma üsulu idi.
8 Qəyyum olan adam Boaza dedi: «Sən özün
satın al». Sonra da o öz çarığını çıxardı. 9 Boaz
ağsaqqallara və bütün xalqa dedi: «Siz də bu gün
şahidsiniz ki, mən Elimelekin bütün mülkünü,
Kilyon və Maxlonun bütün mülklərini Naomidən
satın alıram. 10 * Mərhumun adı öz irsi üzərində
qalsın deyə Maxlonun dul arvadı Moavlı Rutu
da özümə arvad alıram. Qoy qardaşları arasından,
yurd qapılarından mərhumun adı silinməsin. Siz
də bu gün şahidsiniz». 11 * Darvaza yanına yığılan
bütün xalq və ağsaqqallar dedilər: «Biz şahidik, qoy
Rəbb sənin evinə gələn qadını İsrail evini quran iki
qadın Rəhilə və Lea kimi etsin. Efratada qüdrətli
işlər görəsən və Bet-Lexemdə adın tanınsın. 12 *
Qoy Rəbb sənin evini bu gənc qadından verəcəyi
nəsli Tamarın Yəhudaya doğduğu Peresin evi kimi
etsin».
13 Boaz Rutu aldı və Rut ona arvad oldu. Boaz
onun yanına girdi. Rəbb Rutun bətninə uşaq
verdi və Rut oğul doğdu. 14 Qadınlar Naomiyə
dedilər: «Rəbbə alqış olsun ki, bu gün sənə gələcək
qəyyumunu verdi. Qoy onun adı İsraildə tanınsın.
15 Bu körpə səni canlandıracaq və qoca vaxtında
səni saxlayacaq. Çünki onu sənə yeddi oğuldan
daha yaxşı olan, səni sevən gəlinin doğmuşdur».
16 Naomi uşağı qucağına alıb gəzdirdi və onun
dayəsi oldu. 17 Qonşu qadınlar ona ad qoyub

* **4:10** Qanun. 25:5-6 * **4:11** Yar. 29:31 * **4:12** Yar. 38:27-30

dedilər: «Naomi üçün oğul doğulub». Onun adını Oved qoydular. O, Davudun atası olan Yesseyin atasıdır.

*Davudun nəsil şəcərəsi*

18 Peresin nəsli budur: Peresdən Xesron törədi.
19 Xesrondan Ram törədi. Ramdan Amminadav törədi.
20 Amminadavdan Naxşon törədi.
Naxşondan Salmon törədi.
21 Salmondan Boaz törədi. Boazdan Oved törədi.
22 Oveddən Yessey törədi. Yesseydən də Davud törədi.

# Azərbaycan dilində Müqəddəs Kitab
## The Holy Bible in the Azerbaijani language, also known as the Azeri language, of Azerbaijan, Iran, Iraq, Syria, and Turkey

Copyright © 2008 Müqəddəs Kitab Sirkəti

Language: Azeri (Azerbaijani, South)

Translation by: Institute for Bible Translation

Contributor: Bible Society of Azerbaijan

This translation text is made available to you under the terms of the Creative Commons License: Attribution-Noncommercial-No Derivative Works. (http://creativecommons.org/licenses/by-nc-nd/3.0/) In addition, you have permission to port the text to different file formats, as long as you do not change any of the text or punctuation of the Bible.
You may share, copy, distribute, transmit, and extract portions or quotations from this work, provided that you include the above copyright information:
You must give Attribution to the work.
You do not sell this work for a profit.
You do not make any derivative works that change any of the actual words or punctuation of the Scriptures.
Permissions beyond the scope of this license may be available if you contact us with your request.
This translation is made available to you under the terms of the Creative Commons Attribution-Noncommercial-No Derivatives license 4.0.
You may share and redistribute this Bible translation or extracts from it in any format, provided that:
You include the above copyright and source information.
You do not sell this work for a profit.
You do not change any of the words or punctuation of the Scriptures.
Pictures included with Scriptures and other documents on this site are licensed just for use with those Scriptures and documents. For other uses, please contact the respective copyright owners.

2018-11-09

PDF generated using Haiola and XeLaTeX on 11 Nov 2022 from source files dated 9 Oct 2020
5d1dd449-0589-5c75-ab0e-6b96786f2985